*Oqtay Rza,*
*Şair, əməkdar müəllim*



## Buludxan

*Ədəbiyyatşünas alim*
*Buludxan Xəlilovun 50 yaşına*

Ey Əziz dədənin ən əziz oğlu -
Cavanlıq çağından ulu Buludxan!
Həmişə təzətər, yaşıl duyğulu,
Köksü kəlamlarla dolu Buludxan!

Uca kürsülərdən səsin yüksəlir,
Sadiqsən ləyaqət, söz saflığına;
"Dirçəliş" dərgisi qədrini bilir,
"Elm" də heyrandır sərraflığına.

Seçdiyin yol çətin, şərəfli, uzun,
İzmirdən keçərək Zəncana çatır.
Ölkədə get-gedə artan nüfuzun,
Hörmətin buluddan yuxarıdadır!

Düzülüb durna tək təzadlı günlər,
Yaşın görüşünə gəlir yaş hər il;
Sağ olsun minnətsiz çörək bölənlər,
Səni duya bilməz hər yetən qafil!

Sevgi ocağından od alır ürək.
Sevənlər ən uca zirvədən aşır.
Mənim də gözümdə kiçik Toğrul bəy
Böyüyə - böyüyə Buludxanlaşır.

Deyirsən: "Durulsun bulanıq dünya,
Gərək çiçəklənə Türkologiya!"
Güvəncim - Qorqudun Bütövlük dərsi,
Eradan əvvəlki düşüncə tərzi.
Həyat dastanının sınaq bəhsində
Tarixə bərabər gün də, an da var;
Məşhur dilçilərin ön cərgəsində,
Vətən, nə yaxşı ki, Buludxan da var!
09.02.2004

***
Dost alim Buludxan Əziz oğlusan,
Sən də məmləkətin əziz oğlusan -
Ürəyi buludsuz göy qədər geniş,
Ürəyi çeşmədən təmiz oğlusan!

Sən ata-Toğrullu, Tuğralı dədə,
Qayğıkeş, həm cavan, həm ulu dədə;
Dədə məhəbbətin dərinləşibdir
Qorqud tədqiqatlar Mərkəzində də.

Rəqib sualına verdiiyn cavab
Elə bil tül, ipək, ya da nizə tək.
Dilçilik haqqında yazdığın kitab
Xaçpərəst Qərbdə də oxunsun gərək!

Hər yeni məqalən, əsərin gözəl,
Hər təzə uğurun, zəfərin gözəl;
Rektorla birlikdə dəvət almağın,
Qardaş Türkiyəyə səfərin gözəl!

Nitqin, çıxışların sovqat, hədiyyə,
Telegüzgüdən də söz de, Buludxan!
Elm fədaisi olsan da, niyə
Niyə mükafatsız görünsün yaxan?

Buludxan - ucalıq, ülviyyət, ad-san,
Vədini əmələ çevirən insan!
ADPU-ədəbiyyat-filologiya,
Tələbə gəncliyin sevdiyi dekan.

Vəfalı Zəlihə xanımın ilə
Bütün istəklərə, arzulara çat!
Ömrün çox hissəsi öndədir hələ,
İl-ilə calansın, oxu, yaz, yarat!

Dost alim Buludxan Əziz oğlusan,
Sən də məmləkətin əziz oğlusan-
Ürəyi buludsuz göy qədər geniş,
Ürəyi çeşmədən təmiz oğlusan!

09.03.2010